# Azərbaycanın xoşbəxt gələcəyi İlham Əliyevin əzmlə davam etdirdiyi quruculuq və inkişaf strategiyası ilə bağlıdır



## Deputatlar dövlət başçısına respublikamızın firavanlığı və inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıblar

Dekabrın 23-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

### Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq

İclası açan Milli Məclisin Sədri bildirib ki, dekabrın 24-ü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günüdür. "Möhtərəm Prezident cənab İlham Əliyev vətənimizin bu günü və sabahı naminə həyata keçirdiyi möhtəşəm işlərlə xalqımızın dərin məhəbbətini və hörmətini qazanmışdır. Müasir dünyanın çox mürəkkəb bölgəsində yerləşən ölkəmizi layiqli şəkildə idarə etmək üçün dövlət başçısından siyasətə, iqtisadiyyata, hərb işinə, tarixə, mədəniyyətə, başqa sahələrə dərindən bələdlik tələb olunur. Bütün bu xüsusiyyətlərlə yanaşı, cənab İlham Əliyev Vətənə dərin məhəbbət, səmimilik, sadəlik, təvazökarlıq, insanların qayğılarına həssas münasibət kimi yüksək mənəvi keyfiyyətlərə də malikdir" - deyə Sahibə Qafarova bildirib.

Sahibə Qafarova qeyd edib ki. Prezident İlham Əliyev Azərbaycanın müzəffər rəhbəridir: "Onun siyasi-diplomatik və sərkərdəlik məharəti sayəsində 44 günlük Vətən müharibəsində Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunması ölkəmizin inkişaf tarixində yeni mərhələ açmış, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişdirmişdir".

Ölkəmizin xoşbəxt gələcəyinin bu gün cənab İlham Əliyevin əzmlə davam etdirdiyi quruculuq və inkişaf strategiyası ilə bağlı olduğunu deyən Milli Məclisin Sədri əmin olduğunu bildirib ki, möhtərəm Prezidentin rəhbərliyi ilə Azərbaycan qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında öz yerini daha da möhkəmləndirəcəkdir.

Milli Məclisin Sədri təklif edib ki, doğum günü münasibəti ilə möhtərəm Prezidentə Milli Məclis adından təbrik məktubu ünvanlayaq. Ona Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətində yeni böyük uğurlar arzulayaq.

Spikerin təklifi alqışlarla qarşılanıb.

Cari məsələlərin müzakirəsi zamanı çıxış edən komitə sədri Zahid Oruc, deputatlardan Razi Nurullayev, Aydın Mirzəzadə, Ceyhun Məmmədov, Sahib Alıyev, Fazil Mustafa, Elman Nəsirov, Vahid Əhmədov, Əli Məsimli, Azay Quliyev spikerin Prezident İlham Əliyevə ünvanladığı təbrikə qoşulublar, dövlət başçısına Azərbaycanın firavanlığı və inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar diləyiblər.

Deputatlar rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində təbii sərvətlərimizin qeyri-qanuni istismar olunmasına etiraz ediblər, Laçın-Xankəndi yolunda aksiya keçirən azərbaycanlı ekofəalların rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində qeyri-qanuni istismar olunan mədənlərə dövlət qurumlarımızın baxış keçirmək tələbini dəstəkləyiblər, həmçinin dünyada və ölkədə baş verən aktual hadisələrə, ölkə vətəndaşlarını maraqlandıran məsələlərə münasibətlərini bildiriblər.

### Hakimlərin seçilməsi və qiymətləndirilməsində qanunçuluğa və şəffaflığa yüksək səviyyədə riayət olunur

Parlamentin sədri Sahibə Qafarova bildirib ki, iclasın gündəliyinə 39 məsələ daxil edilib. Spiker diqqətə çatdırıb ki, birinci 7 məsələ ölkə Prezidentinin təqdimatı ilə yuxarı instansiya məhkəmələrinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihələridir.

Məsələlər məzmun və mahiyyətcə bir-birinə yaxın olduğu üçün parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, həmçinin Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov ümumi məlumat verib. Bildirib ki, gündəliyin ilk 7 məsələsi - Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi, Sumqayıt Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi, Şirvan Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi haqqında Milli Məclisin qərar layihələridir.

Azərbaycanda həyata keçirilən hüquqi islahatların mühüm tərkib hissəsinin qanunun aliliyi prinsipinə əsaslanan müasir məhkəmə sisteminin formalaşdırılması olduğunu deyən Nizami Səfərov bu istiqamətdə həyata keçirilən fundamental dəyişikliklərdən söz açıb.

Qərar layihələrinin müzakirələrində komitə sədri Siyavuş Novruzov, deputatlar Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Razi Nurullayev, Etibar Əliyev, Bəhruz Məhərrəmov, Tahir Kərimli, Hikmət Məmmədov və Erkin Qədirli bununla bağlı fikirlərini bildirib, qeyd və təkliflərini səsləndiriblər.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və deputat, Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirəndən sonra Milli Məclisin qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak edən və təyin olunan hakimləri təbrik edib, ədalət mühakiməsinin həyata keçirilməsində onlara uğurlar arzulayıb. Eyni zamanda deputatların qaldırdıqları məsələlərə diqqətlə yanaşmağı və tövsiyələrini nəzərə almağı xahiş edib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev gündəliyin 8-ci məsələsi olan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında" sazişin təsdiq edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Bildirib ki, 15 maddədən ibarət saziş 2022-ci il noyabrın 4-də Bakı şəhərində imzalanıb. Sazişin məqsədi ölkələr arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlığı inkişaf etdirmək və bitkiçilik məhsullarının ticarət və mübadiləsini asanlaşdırmaqdır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri bildirib ki, gündəliyin növbəti 9 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. "Valyuta tənzimi haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Banklar haqqında", "Poçt haqqında", "Fərdi məlumatlar haqqında" qanunlarda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə, "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Qaz təchizatı haqqında" qanunda dəyişiklik edilməsi barədə, İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında, Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında, Miqrasiya Məcəlləsində və "Əlet Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri növbəti 15 məsələnin isə ikinci oxunuşda olan qanun layihələri olduğunu bildirib. Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin məlumatından sonra "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

### Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı hüquqi baza gücləndirilir

Parlamentin sədri diqqətə çatdırıb ki, növbəti beş məsələ ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olan qanun layihələridir və onlar mahiyyətcə bir-birinə bağlıdır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, layihə FATF-nin (Maliyyə Tədbirləri üzrə İşçi Qrup) yeni standartları və MONEYVAL-ın (Avropa Şurasının Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi) 5-ci qiymətləndirmə qanunu ilə əlaqədar olaraq hazırlanıb.

6 fəsil, 25 maddədən ibarət olan qanun cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinin aşkar edilməsi, qarşısının alınması və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə olunma imkanlarının istisna edən şəraitin yaradılması, bu istiqamətdə Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, habelə dövlətin və cəmiyyətin maraqlarının qorunması məqsədilə effektiv ölkədaxili və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyəcək.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov rəhbərlik etdiyi komitənin məsələ ilə bağlı rəyini səsləndirərək, sənədin bugünkü tələblərə cavab verdiyini söyləyib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Nizami Səfərov "Hədəfli maliyyə sanksiyaları haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihə terrorçuluğun və kütləvi qırğın silahlarının yayılmasının və maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Mülki Prosessual Məcəllədə və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında, Mənzil Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Ardı 6-cı səh.

# Azərbaycanın xoşbəxt gələcəyi İlham Əliyevin əzmlə davam etdirdiyi quruculuq və inkişaf strategiyası ilə bağlıdır

*Əvvəli 5-ci səh.*

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Dəyişikliklərdə həmin sahədə işləyən fiziki şəxslərə gəlir vergisi güzəştlərinin tətbiqi, bu sahədə sahibkarlıqla məşğul olan fiziki şəxslərin əldə etdikləri gəlirlərin gəlir vergisindən, hüquqi şəxslərin isə mənfəət vergisindən azad edilməsi, bu sahədə fəaliyyət göstərən şəxslər tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində verginin tutulmaması, bu şəxslərə əmlak və torpaq vergisi sahəsində azadolmaların şamil edilməsi nəzərdə tutulub.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.



Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Bildirib ki, bu məsələ Vergi Məcəlləsinə edilən dəyişikliklərlə əlaqədardır. Layihəyə əsasən, iş icazəsinin alınması tələb olunmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin dairəsinə texnologiyalar parkının rezidenti və həmin rezident tərəfindən ölkə ərazisində əmək fəaliyyətinə cəlb edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində təcrübəsi olan mütəxəssislər əlavə olunur. Buna uyğun olaraq həmin şəxslərə Azərbaycan ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi nəzərdə tutulur.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Daha sonra "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) müzakirəyə çıxarılıb. Bildirilib ki, layihədə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq qaydada idxal edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının gömrük rüsumlarından azadolma müddətinin həmin rezidentin qeyd olunan parklarda qeydiyyata alındığı tarixdən 3 il artırılaraq 10 il müəyyən edilməsi nəzərdə tutulub.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) mahiyyəti barədə danışıb. Bildirib ki, sənəddə texnologiyalar parkında müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin inkişaf etdirilməsi, yüksəkixtisaslı mütəxəssislərin və kadrların cəlb edilməsi, həmçinin sahibkarlıq subyektlərinin və yüksəkixtisaslı peşəkar muzdlu işçi qüvvəsinin bu sahəyə axınının təmin edilməsi üçün məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində güzəştlərin verilməsi ilə bağlı dəyişikliklər təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

## Keyfiyyət göstəricilərinin artırılmasına və sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə yönələn dəyişikliklər

Daha sonra komitə sədri Tahir Mirkişili Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb.

Bildirib ki, layihə "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb. Bununla bağlı adları çəkilən qanunlarda qida və ərzaq məhsullarının dövriyyəsinə dair lazım olan sənədlər və tələb olunan rüsumların təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Sənəddə elektrik şəbəkəsinə qoşulmanın prinsip və şərtlərinin tənzimlənməsi, qoşulma qaydası müəyyən edilərkən istehlakçı kateqoriyasının, alınan enerjinin həcminin və tikinti obyektinin statusunun nəzərə alınması, tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və əlavə güc alması qaydasının, qoşulma xidmətinə görə ödənişin məbləğinin müəyyən edilməsinə dair metodologiya ilə bağlı hüquqi əsasın yaradılması və şəffaflığın təmin edilməsi, sifarişçi ilə elektrik şəbəkəsi arasında qoşulma müqaviləsinin imzalanması ilə əlaqədar məsələlər öz əksini tapıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin digər 7 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Spiker diqqətə çatdırıb ki, növbəti məsələ "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) Konstitusiya qanununun layihəsidir. O qeyd edib ki, Konstitusiya qanunları Milli Məclisdə iki dəfə səsə qoyulur və bu gün birinci səsvermənin birinci oxunuşudur.

Məsələ barədə parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, sənəd normayaratma prosesinin keyfiyyətinin yüksəldilməsi və effektivliyinin təmin edilməsi məqsədilə hazırlanıb.

Eyni zamanda layihədə normativ-hüquqi aktın layihəsinin razılaşdırılması və normayaratma orqanına təqdim edilməsi qaydalarının təkmilləşdirilməsi də təklif edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, sənəddə Azərbaycanın diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin, onların ailə üzvlərinin diplomatik nümayəndəlik və konsulluqların yerləşdiyi ölkələrin sosial-iqtisadi və maddi-məişət şəraitinə uyğun olaraq həyat səviyyəsinin daha da yaxşılaşdırılması üçün onların əməkhaqlarının artırılması, onlara əlavə müavinətlərin ödənilməsi məqsədilə müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ ilə bağlı qeyd edib ki, layihəyə əsasən, diplomatik xidmət orqanı əməkdaşlarının Xarici İşlər Nazirliyində hazırda saxlanılan 50 faiz əməkhaqları ləğv olunur və onlara vahid dövlət məvacibi hesablanır.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

"Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda qəbul edilib.

Parlamentin sədri bildirib ki, gündəliyin növbəti iki - 36-cı və 37-ci məsələləri cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, ancaq bu qanun layihələrində müxtəlif məsələlər tənzimlənir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Layihə əsasən texniki xarakter daşısa da, Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin təkmilləşdirilməsində mühüm əhəmiyyətə malikdir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

## Etik müvəkkil vəzifəsi təsis ediləcək

Gündəliyin 37-ci məsələsi olan "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında məlumat verən Nizami Səfərov diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"da dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi və dövlət orqanlarında etik davranış qaydalarına daha ciddi riayət edilməsinin təmin edilməsi məqsədilə dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməli olduğu qeyd olunub.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Nizami Səfərov növbəti məsələ - "Məhkəmələr və hakimlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirib ki, sənəd uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, Azərbaycan Konstitusiyasının 126-cı maddəsinin I hissəsinə uyğun olaraq, "Məhkəmələr və hakimlər haqqında" qanunun 93-cü maddəsində də hakim vəzifəsinə namizədlər üçün tələblərdə yaş senzinin ləğvi təklif olunub. Bundan başqa, "qüvvədə olan qanunvericiliyə əsasən, hakim vəzifəsinə hakimlər ilk dəfə üç il müddətinə təyin olunurlar və bu müddətin sonunda hakimlərin fəaliyyəti qiymətləndirilir. Qiymətləndirmənin nəticələrinə əsasən birinci instansiya məhkəməsinin hakimi işləmiş şəxsin yuxarı instansiya məhkəməsinə təyin olunmasına dair qərar qəbul oluna bilər. Bununla əlaqədar olaraq "Məhkəmələr və hakimlər haqqında" Qanunda "5 il" sözlərinin "3 il" sözləri ilə əvəz edilməsi, eləcə də "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya qanununun 64.4-cü maddəsinə əsasən, "bir qayda olaraq" sözlərinin çıxarılması təklif olunur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti ilə bağlı məlumat verib. Diqqətə çatdırıb ki, layihə "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 13 may 2022-ci il tarixli Qanuna uyğunlaşdırılma məqsədilə hazırlanıb.

Belə ki, qanunun anlayışlar maddəsinin 1.0.4-cü bəndində əks olunan "internat tipli ümumtəhsil müəssisələri" anlayışı və onun təsnifatı verilir. Həmin anlayışın yeni redaksiyada mənası - sutkalıq əsasda fəaliyyət göstərən və ayrı-ayrı kateqoriyadan olan təhsilalanlar üçün müvafiq təhsil proqramları əsasında təhsil prosesinin həyata keçirildiyi ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbi, internat tipli lisey, internat tipli gimnaziya, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbi, internat tipli xüsusi ümumtəhsil məktəbi, internat tipli sanator ümumtəhsil məktəbi kimi təqdim olunur. Komitə sədri qeyd edib ki, dəyişiklik vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsini, təhsilin əlçatanlığını təmin edəcək.

Deputatlar Etibar Əliyev, Sədaqət Vəliyeva, Müşfiq Cəfərov məsələ barədə fikirlərini açıqladıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Bakı Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Hakimlik səlahiyyətinin müddəti 2023-cü il yanvarın 2-də başa çatan Cəfərov İlham Məmməd oğlu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun Keçid müddəalarının 7-ci hissəsinin dördüncü abzasına uyğun olaraq, Bakı Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

2. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:
Abdıyev Fuad Vilayət oğlu,
Axundova Günay Təyar qızı,
Allahverdiyev Elbəy Hidayət oğlu,
Bəhrəmzadə Sabit Xanlar oğlu,
Əyyubov Fərid İlham oğlu,
Hüseynov Pərviz Aktiv oğlu,
İbrahimov Anar Firdovsi oğlu,
Qasımov Fərrux Hüseynağa oğlu,
Musayeva Cəmilə Ceyhun qızı,
Rüstəmli Məhəmməd Əli oğlu,
Səmədov Rəşid Əfraim oğlu.

3. Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsinlər:
Kərimli İlham Əziz oğlu,
Qasımov Faiq Adil oğlu,
Məhərrəmova Şeyda Ədalət qızı.

4. Bu Qərarın 1-ci hissəsi 2023-cü il yanvarın 2-dən, 2-ci və 3-cü hissələri imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## Gəncə Apellyasiya Məhkəməsinin hakimlərinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Gəncə Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:
Cəfərov Rafiq Musa oğlu,
Əliyev Nural Turab oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## Sumqayıt Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:
Cabbarova Gülnar İnqilab qızı,
İsmayılov Azər İbrahim oğlu,
Mahmudov Ayaz Akif oğlu,
Rəhimli Lalə Elxan qızı,
Süleymanova Almaz Məhərrəm qızı.

2. Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri vəzifəsindən azad edilsinlər:
Quliyev Telman Osman oğlu,
Tağızadə Gülnarə Fikrət qızı.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## Şəki Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:
Mehdiyev Elçin Məhəmməd oğlu,
Səmədov Xəqani Hacı oğlu.

2. Abbasov Gündüz Qasım oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Şəki Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:
Abdulov Rəşad Məhərrəm oğlu,
Babayev Zəki Baba oğlu,
Cəfərov Vidadi Cəfər oğlu,
Xıdırov Əhliman Mehman oğlu,
Məmmədov Vidadi Məmməd oğlu.

2. Xəlilov İsmayıl Kamil oğlu vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## Şirvan Apellyasiya Məhkəməsinin hakimlərinin təyin və vəzifədən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Şirvan Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:
Əhmədov Pərviz Tərlan oğlu,
Həsənov Samir Firdusi oğlu,
Xasməmmədov Elçin İsgəndər oğlu,
İmanov Cahid Fehruz oğlu.

2. Aşağıdakı hakimlər vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Şirvan Apellyasiya Məhkəməsinin hakimləri vəzifəsindən azad edilsinlər:
Mirzəyev Nüsrət Fətulla oğlu,
Zeynalov Zeynal Ağabala oğlu.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Hakimlik səlahiyyətinin müddəti 2023-cü il yanvarın 2-də başa çatan Mirzəyev İlqar Məhərrəm oğlu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun Keçid müddəalarının 7-ci hissəsinin dördüncü abzasına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:
Bəylərli Səxavət Şahhüseyn oğlu,
Novruzov Səxavət Hüseyn oğlu.

3. Bu Qərarın 1-ci hissəsi 2023-cü il yanvarın 2-dən, 2-ci hissəsi imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 23 dekabr 2022-ci il*

Azərbaycan.- 2022.-24 dekabr.- S.5-6.